KREDO

№ 22 (1278) 21 iyun 2025-ci il

*Vida sözü*

# YANAN ÜRƏYİN ALOVU

Ramiz Duyğunun ölüm xəbərini eşidən kimi gözlərimin önündə alov göründü; yanan ürəyin alovu. Kimsəyə sözüm qəribə gəlməsin. R.Duyğun şeir oxuyanda sanki onun ağzından sözü ilə birgə qəlbinin alovları burulub vulkan püskürməsi kimi dilimlənirdi. Dalğa-dalğa o alovlar sözqarışıq onu eşidənlərin ruhuna, varlığına dolurdu.

R.Duyğunu ilk dəfə mənimlə Söhrab Tahir tanış etmişdi. Canlı Ramiz Duyğunu görmək mənim gənclik yaddaşımın əfsanəvi "Hünər"ini illərin o üzündən çəkib gözlərimin önünə gətirmişdi. Onu da deyim ki, "Söhrab Tahirə məktub" adlı qəsidə-poemamın ilk oxucusu da elə R.Duyğun olmuşdu. Qəzetdə çap olunan günün səhəri zəng edib ayrı-ayrı bəndləri oxudu. Axırda da dedi ki, sənin bu əsərin Cənubi Azərbaycanın bağrında sönmüş ocağın külü altında qalmış qorları sovuracaq, təzə odlar, alovlar başlayacaq. Sən tonqal çatmısan, Əlirza!

Ramiz Duyğunqədər hərbi vətənpərvərlik hissini oda büküb şeirə gətirən şair kimi Xəlil Rzadan sonrakı dövrün boşluğunu sözü ilə tutmuşdu.

Ramiz Duyğun vuruşurdu - Qarabağ uğrunda vuruşurdu, Azərbaycan uğrunda vuruşurdu. Çoxlu sayda kitabları ilə varlığına yığılmış maqma kimi yanan sözü ilə.

*Əli Rza XƏLƏFLİ*
*20.06.2025*

S.16